

# "Çatdırılma"

tarifi

# "Çatdırılma" tarifinin xüsusiyyətləri haqqında



"Qapıdan qapıya" xidmətinə görə çatdırılma haqqı daha yüksək ola bilər



Çatdırılma və sərnişin daşınmasını bir arada həyata keçirməklə daha çox sifariş əldə etmək mümkündür



Avtomobil tamamilə sizin sərəncamınızdadır. Sevimli musiqinizi yüksək səslə dinləmək istəsəniz belə, heç kəs etiraz etməyəcək



Problem yarandıqda proqram vasitəsilə dəstək xidmətinə yazın



# Bağlamalar haqqında



Bağlama avtomobilin yük yerinə yerləşməli və çamadandan böyük olmamalıdır.



Adətən, kiçik yaddan çıxmış əşyalar (paltar, enerji doldurma qurğusu, açarlar), sənədlər, hədiyyələr (çiçəklər, konfetlər, oyuncaqlar), ərzaq, hazır yemək (lazımi qaydada qablaşdırılmalı və ya termopaketdə olmalıdır) kimi kiçik bağlamalar və daşınması qadağan olmayan digər əşyalar daşımalı olacaqsınız.



Maksimum çəki

**20 kq**

# Nəyi çatdırmaq olmaz?

Pul və zinət əşyaları

Heyvanlar

Xüsusi daşınma şərtləri tələb edən əşyalar

Çirkli bağlamalar

Silah və narkotik maddələr

Qanunla qadağan olunmuş hər hansı digər əşyalar

Sərnişin daşımaq olmaz.

**Bağlama tələblərə cavab vermirsə, sifarişi ləğv edin və dəstək xidmətinə yazın.**

# COVID-19 ilə bağlı əlavə təhlükəsizlik tədbirləri



Koronavirus pandemiyası dövründə Azərbaycanın hər yerində təhlükəsizlik tədbirləri gücləndirilir.



Çatdırma zamanı maska taxın



Bağlamaları istifadəçilərə əldən-ələ təhvil verməməyə çalışın



Görüş zamanı bağlamanın təhlükəsiz şəkildə təhvil verilməsi barədə razılığa gəlin.




1,5 metr olmaqla sosial məsafə saxlayın

# Bağlamanı salamat şəkildə necə çatdırmalı?



Salonun təmizliyinə diqqət edin, əks halda, bağlama çirklənə və üzərinə kənar qoxular hopa bilər



Bağlamanı etibarlı şəkildə bərkidin. Onu mayenin axmayacağı, yeməyin isə dağılmayacağı şəkildə yerləşdirin. Razılaşın ki, heç kəs əzilmiş yemək almaq istəməz.



Unutmayın ki, bağlı qablaşdırmada kövrək bir şey ola bilər. Onunla ehtiyatlı şəkildə davranın.



# Qablaşdırma haqqında



Dəyərli bağlama göndərən tərəfindən qablaşdırılmalıdır.



Belə olmadıqda mümkün iddiaların qarşısını almaq üçün onunla birgə bağlamanın şəklini çəkin



Bağlama qablaşdırılıbsa, onu açmaq olmaz

# Taksometr haqqında






# Tarif haqqında məlumat

"Qəbul et" düyməsində hər zaman sifarişin hansı tarif üzrə gəldiyi göstərilir




# Sifarişə bildirilən şərh

Heç nəyi nəzərdən qaçırmamaq üçün şərhləri diqqətlə oxuyun. Məsələn, bunun "Qapıdan qapıya" sifarişi olduğu və ya ünvan haqqında təfərrüatlar




# Zəng

Birbaşa sifariş ekranından həm göndərənə, həm də qəbuledənə zəng edə biləcəksiniz. Qəbuledənlə əlaqə saxlamadan və ya bağlamanı təhvil vermədən sifarişi bitirməyin

# Dəstək xidməti haqqında

Bu hallarda dəstək xidmətinə yazın:

• Göndərən və qəbuledən əlaqəyə çıxmırsa;

• Bağlama tələblərə cavab vermirsə (belə hallarda sifarişi ləğv etməyi unutmayın);

• Başqa problem yaranıbsa



# Çatdırılmanın ödənilməsi haqqında



İki ödəniş üsulu mövcuddur: nağd və nağdsız hesablaşma




Ödəniş üsulu Taksometr proqramının sifariş ekranında qeyd edilib



Xəttə çıxarkən hər zaman nağd şəkildə xırda pulunuzun olduğundan əmin olun

# Sifariş üzrə ödəniş nağd edildikdə

Bağlamanı götürdükdən sonra telefon zəngi vasitəsilə qəbuledənə ilkin sifariş qiymətini bildirin

B nöqtəsində ödənişli gözləmə olubsa, qəbuledənə sifariş qiymətinin nə üçün dəyişdiyini izah edin

Qəbuledənin ödəniş ilə bağlı sualı yaranarsa, ona dəstək xidmətinə müraciət etməsini təklif edin

# Statusları nə zaman dəyişməli

**Yerində**
Göndərənin ünvanına çatdıqda

**Bağlamanı götürdüm**
Bağlamanı göndərəndən təhvil aldıqda

Yola düşməzdən əvvəl qəbuledənə zəng edərək onu xəbərdar edin

**Yerində**
Qəbuledənin ünvanına çatdıqda

**Bağlamanı təhvil verdim**
Bağlamanı qəbuledənə təhvil verdikdə

**Bitir**
Sifarişi yerinə yetirdikdə

Uber



# "Qapıdan qapıya"
xidməti

# Xidmət haqqında



"Qapıdan qapıya" xidməti sifariş qiymətinə daxil olan ödənişli xidmətdir



Bu xidməti sifariş edən istifadəçilər bağlamanı onların ünvanından götürüb təyinat ünvanına təhvil verməyinizi istəyir



Sifarişləri qapıdan qapıya çatdırmam-aqla tarifin qaydalarını pozursunuz. Buna görə tarifə çıxış imkanı məh-dudlaşdırılacaq



Avtomobildən çıxmaq istəmirsinizsə, "Qapıdan qapıya" sifarişlərini qəbul etməyin. Nəzərə alın ki, sifarişləri ötürdükdə Fəallıq göstəriciniz azalır

# "Qapıdan qapıya" sifarişlərinin yerinə yetirilməsinin xüsusiyyətləri



**Sifarişə bildirilən şərh**
Qəbul ekranında olan şərhdə hər zaman "Qapıdan qapıya" sifarişi gəldiyi qeyd edilir



**"Yerində" statusu**
"Yerində" statusuna basmazdan əvvəl qeyd edilən ünvana (mənzil/ofis) çatın və gəldiyinizi bildirin. Bunu qapı zənginə basaraq etmək mümkündür, olmadıqda isə telefon zəngi edin

# Ünsiyyət haqqında

Ünsiyyət üslubunuz çatdırılma xidmətindən yaranan təəssürata təsir göstərir. Buna görə telefon danışığı zamanı belə, nəzakətli və mehriban olun

1. **Hər zaman salamlaşın**
2. **Yalnız "siz" deyərək müraciət edin**
3. **Vidalaşmağı unutmayın**

Təcrübəli kuryerlərin fikrincə, "Gününüz xoş keçsin", "sağ olun" və "nuş olsun" kimi sadə ifadələr istifadəçilər tərəfindən verilən qiymətə və bəxşişə müsbət təsir göstərir




# Göndərən və ya qəbuledən kobud davranış nümayiş etdirirsə

Göndərən və ya qəbuledən əhvalından asılı olaraq vəziyyətə fərqli reaksiyalar göstərə bilər. Unutmayın ki, siz peşəkarsınız və sizin vəzifəniz istənilən vəziyyətdə təmkinli və nəzakətli olmaqdır




Nəzərə alın ki, sifarişi bitirdikdən sonra siz həmin şəxsi qiymətləndirə və rəy bildirə bilərsiniz. Müəyyən hallarda istifadəçi haqqında dəstək xidmətinə məlumat verə bilərsiniz

Uber



# Qeyri-standart hallar haqqında



# Yolda çətinliklərlə üzləşdikdə nə etməli?



Sifarişə bildirilən şərhi oxuyun. Ola bilsin ki, sualınızın cavabını orada tapacaqsınız



Göndərənə və ya qəbuledənə zəng edin və nə etməli olduğunuzu soruşun



Üzləşdiyiniz çətinlikdən asılı olmayaraq, təşvişə düşməyin. Təmkinli və nəzakətli şəkildə danışın



Göndərən və ya qəbuledənlə razılığa gəlmək alınmırsa, kömək üçün Dəstək xidmətinə müraciət edin

# Vəziyyət

"Qapıdan qapıya" sifarişinə gəlmisiniz, lakin yaxınlıqda park etmək mümkün deyil

# Nə etməli

1. **Park etmək üçün yer axtarın**
2. **Park etmək mümkün olmadıqda müştəriyə zəng edin və münasib yerdə görüşməyi təklif edin**
3. **Müştəri sizə yaxınlaşdıqda Dəstək xidmətinə yazın. Sifarişin şərtini yerinə yetirməyin mümkün olmadığını bildirin**

Dəstək xidmətinin mütəxəssisi sifarişin təfərrüatlarını yoxlayacaq və yaranmış problemi həll etməkdə kömək edəcək

# Vəziyyət

Qəbuledənlə görüşdünüz, lakin o, bağlamanı təhvil almaqdan və ya çatdırılma haqqını ödəməkdən imtina edir

# Nə etməli

1 **1. Göndərənlə əlaqə saxlayın və geri qaytarma haqqında razılığa gəlin. Daha sonra "Qaytarma" düyməsinə basın (proqramda varsa). Belə düymə yoxdursa, sifarişi bitirməyin**

2 **Bağlamanı göndərənə qaytarın. Qayıdacağınız yola görə tarifə uyğun ödəniş alacaqsınız**

Göndərən cavab vermirsə, yaxud bağlamanı təhvil ala bilmirsə, bağlamanı taksi parkınıza aparın, sifarişi bitirin və dəstək xidmətinə yazın, daha sonra dəstək xidməti sizi təlimatlandıracaq

# Vəziyyət

Bağlamanı gətirmisiniz, lakin qəbuledən əlaqəyə çıxmır

# Nə etməli

1. **Qəbuledənin qapısına yaxınlaşın. Qəbuledən qapını açmadıqda "Yerində" və ya "Təhvil vermə" düyməsinə basın**
2. **2. Qapıda ən azı 10 dəqiqə gözləyin. Bu müddət ərzində qəbuledənə zəng etməyə davam edin. Ən azı 3 dəfə zəng etmək tələb olunur**
3. **Qəbuledən cavab verməsə, bağlamanı qaytarmaq məqsədilə göndərən ilə əlaqə saxlamağa çalışın**

Təlimatın davamı növbəti səhifədədir →

# Vəziyyət

Bağlamanı gətirmisiniz, lakin qəbuledən əlaqəyə çıxmır

# Nə etməli

Təlimatın birinci hissəsi əvvəlki səhifədədir ←

4 **Göndərən cavab vermirsə, "Qaytar" düyməsinə basın, əgər düymə yoxdursa, sifarişi bitirməyin, bağlamanı taksi parkınıza aparın və mütləq sifariş ilə bağlı vəziyyəti dəstək xidmətinə izah edin**

⚠ Bu bəndlərə diqqət yetirin, əks halda, Çatdırılma tarifi qeyri-aktiv ediləcək və yenidən attestasiyadan keçməli olacaqsınız

Uber



# Nəticələrə baxaq

# Nəticələrə baxaq

Sifarişdə "Qapıdan qapıya" xidməti varsa, özünüz göndərənə və qəbuledənə yaxınlaşın

Xəttə çıxan zaman nağd şəkildə xırda pulunuzun olduğundan əmin olun

Qəbuledənə nağd ödəniş üsulu ilə verilən sifarişin ilkin qiymətini bildirin. Həmçinin yola düşdüyünüz barədə məlumat verin

Qablaşdırmanın vəzyyətinə diqqət yetirin

Hər hansı problem olarsa, göndərən, qəbuledən və ya Taksometr Dəstək xidməti ilə əlaqə saxlayın